# NEGATIVE EFFECTS OF DIVORCE ON CHILDREN AND WAYS TO DEAL WITH THEM

**Turkan Rahimli**[1]

**UDC:** 159.922.7:316.356.2(479.24)
**LBC:** 88.8:60.561.5(5Aze)
**HoS:** 162
**doi:** 10.33864/2790-0037.2026.v7.i2.157-163

**Keywords:**

Divorce,
Marriage,
Impact of divorce on children,
Parent-child relationship,
Attachment

**Subject area:**

Social Sciences

**Research field:**

Family Sociology

## ABSTRACT

The presented article reflects the negative psychological effects of divorce—one of the most pressing socio-psychological problems of the modern era—on children and ways to minimize these consequences. In the introductory part of the research, the relevance of the issue is emphasized against the backdrop of current divorce statistics in Azerbaijan, and the risks this growth dynamics poses to the future psychological health of society are noted. The historical approaches of people toward marriage and divorce, and the reasons for the change in the meaning of these phenomena over the years are explained. Within the framework of the literature review, the different psychological reactions divorce creates in children are comparatively investigated, referring to the long-term observations of researchers such as J.Wallerstein, P.Amato, M.Hetherington, and A.Cherlin. The article explains the phenomenon of divorce through the prisms of J.Bowlby's "Attachment", A.Bandura's "Social Learning", and M.Bowen's "Family Systems" theories. As a result of the research, practical recommendations such as honest communication, a "co-parenting" model, and the preservation of routines are put forward to reduce the traumatic effects of parental conflict on the child.

[1] Doctoral student, Department of Psychology, Khazar University; Baku, Azerbaijan
E-mail: turkan.rahimli@khazar.org
https://orcid.org/0009-0008-9663-5874

**To cite this article:** Rahimli, T. [2026]. Negative Effects of Divorce on Children and Ways to Deal with Them. *History of Science journal*, *7*(2), pp.157-163.
https://doi.org/10.33864/2790-0037.2026.v7.i2.157-163

***Article history:***
*Received: 27 February 2026*
*Revised: 30 March 2026*
*Accepted: 1 June 2026*
*Published: 15 June 2026*

**Copyright: © 2026 by AcademyGate Publishing.** This article is an open access article distributed under the terms and conditions of the CC BY-NC 4.0. For details on this license, please visit https://creativecommons.org/licenses/by-nc/4.0/.

AcademyGate Publishing
p-ISSN 2790-0029; e-ISSN 2790-0037

# BOŞANMANIN UŞAQLARA MƏNFİ TƏSİRLƏRİ VƏ ONLARIN ÖHDƏSİNDƏN GƏLMƏYİN YOLLARI

**Türkan Rəhimli**[1]

**UOT:** 159.922.7:316.356.2(479.24)
**KBT:** 88.8:60.561.5(5Aze)
**HoS:** 162
**doi:** 10.33864/2790-0037.2026.v7.i2.157-163

**Açar sözlər:**

Boşanma,
Evlilik,
Boşanmanın uşaqlara təsiri,
Validеyn-uşaq münasibəti,
Bağlılıq

**Sahə:**

İctimai elmlər

**Tədqiqat sahəsi:**

Ailə Sosiologiyası

## ANNOTASİYA

Təqdim edilən məqalədə müasir dövrün ən aktual sosiopsixoloji problemi olan boşanmanın uşaqlara psixoloji cəhətdən mənfi təsirləri və bu fəsadların minimuma endirilməsi yolları öz əksini tapmışdır. Tədqiqatın giriş hissəsində Azərbaycandakı cari boşanma statistikası fonunda məsələnin aktuallığı vurğulanır və bu artım dinamikasının cəmiyyətin gələcək psixoloji sağlamlığı üçün yaratdığı risklər qeyd olunur. Evliliyə və boşanmaya tarix boyu insanların yanaşması, bu fenomenlərin mənasının illər ərzində dəyişməsinin səbəbləri izah edilmişdir. Ədəbiyyat təhlili çərçivəsində J.Wallerstein, P.Amato, M.Hetherington və A.Cherlin kimi tədqiqatçıların uzunmüddətli müşahidələrinə istinad edilərək, boşanmanın uşaqlarda yaratdığı fərqli psixoloji reaksiyalar müqayisəli şəkildə araşdırılır. Məqalədə boşanma fenomeni J.Bowlby-nin "Bağlanma", A.Banduranın "Sosial Öyrənmə" və M.Bowen-in "Ailə Sistemləri" nəzəriyyələri prizmasından izah olunur. Tədqiqatın nəticəsi olaraq, valideyn münaqişəsinin uşaq üzərindəki travmatik təsirlərini azaltmaq üçün dürüst kommunikasiya, "birgə valideynlik" modeli və rutinlərin qorunması kimi praktik tövsiyələr irəli sürülür.

[1] Doktorant, Psixologiya departamenti, Xəzər Universiteti; Bakı, Azərbaycan
E-mail: turkan.rahimli@khazar.org
https://orcid.org/0009-0008-9663-5874
**Məqaləyə istinad:** Rəhimli, T. [2026]. Boşanmanın Uşaqlara Mənfi Təsirləri və Onların Öhdəsindən Gəlməyin Yolları. *History of Science jurnalı*, *7*(2), səh.157-163.
https://doi.org/10.33864/2790-0037.2026.v7.i2.157-163

***Məqalənin tarixçəsi:***
*Daxil olub: 27.02.2026*
*Yenidən baxılıb: 30.03.2026*
*Təsdiqlənib: 01.06.2026*
*Dərc olunub: 15.06.2026*

**Copyright: © 2026 by AcademyGate Publishing.** This article is an open access article distributed under the terms and conditions of the CC BY-NC 4.0. For details on this license, please visit https://creativecommons.org/licenses/by-nc/4.0/.

# НЕГАТИВНОЕ ВЛИЯНИЕ РАЗВОДА НА ДЕТЕЙ И СПОСОБЫ РЕШЕНИЯ ЭТИХ ПРОБЛЕМ

**Тюркан Рагимли**[1]

**УДК:** 159.922.7:316.356.2(479.24)
**ББК:** 88.8:60.561.5(5Азе)
**HoS:** 162
**doi:** 10.33864/2790-0037.2026.v7.i2.157-163

**Ключевые слова:**

Развод,
Брак,
Влияние развода на детей,
Отношения между родителями и детьми,
Привязанность

**Область исследования:**

Социальные науки

**Научная область:**

Социология семьи

## АННОТАЦИЯ

В представленной статье отражены негативные психологические последствия развода — одной из наиболее актуальных социально-психологических проблем современности — для детей, а также пути минимизации этих последствий. В вводной части исследования подчеркивается актуальность вопроса на фоне текущей статистики разводов в Азербайджане и отмечаются риски, которые эта динамика роста несет для будущего психологического здоровья общества. Разъясняются подходы людей к браку и разводу на протяжении истории, а также причины изменения смысла этих феноменов с годами. В рамках обзора литературы, ссылаясь на многолетние наблюдения таких исследователей, как Дж.Уоллерстайн, П.Амато, М.Хетерингтон и Э.Черлин, сравнительно исследуются различные психологические реакции, возникающие у детей при разводе. В статье феномен развода объясняется через призму теорий «Привязанности» Дж.Боулби, «Социального научения» А.Бандуры и «Семейных систем» М.Боуэна. В качестве результата исследования выдвигаются такие практические рекомендации, как честная коммуникация, модель «совместного родительства» и сохранение привычного распорядка дня, направленные на снижение травматического воздействия родительских конфликтов на ребенка.

[1] Аспирант, Кафедра психологии, Хазарский университет; Баку, Азербайджан
E-mail: turkan.rahimli@khazar.org
https://orcid.org/0009-0008-9663-5874

**Цитировать статью:** Рагимли, Т. [2026]. Негативное влияние развода на детей и способы решения этих проблем. *Журнал History of Science*, *7*(2), с.157-163.
https://doi.org/10.33864/2790-0037.2026.v7.i2.157-163

***История статьи:***
*Поступила: 27.02.2026*
*Переработана: 30.03.2026*
*Принята: 01.06.2026*
*Опубликована: 15.06.2026*

**Copyright: © 2026 by AcademyGate Publishing.** This article is an open access article distributed under the terms and conditions of the CC BY-NC 4.0. For details on this license, please visit https://creativecommons.org/licenses/by-nc/4.0/.

## 1.Giriş

Evlilik iki insanın oxşar və fərqli mənfəətlərinə, xəyallarına, istəklərinə görə bir araya gələrək sosial qaydalar və qanunlar çərçivəsində formalaşan bir birlikdir. Sağlam, dinc və xoşbəxt ailə mühiti həm nigaha daxil olan fərdlərin inkişafı, həm dünyaya gələn uşaqlar, həm də bütövlükdə cəmiyyət üçün böyük əhəmiyyət kəsb edir. Lakin, ailə mühitində müəyyən səbəblərdən sağlam və xoşbəxt bir həyat imkanı yoxdursa, müstəsna bir seçim olan boşanma qaçınılmazdır. Ər-arvad münasibətində fərdlərin psixoloji aspektdən məmnuniyyət əldə etməməsi və qarşılıqlı gözləntilərini və ehtiyaclarını ödəyə bilməməsi nəticəsində nikahın qanuni şəkildə dayandırılması, yəni boşanma prosesi baş verir. Bu proses sadəcə ailə və onun üzvlərinə deyil, eyni zamanda yaratdığı xoşagəlməz nəticələrlə bütün cəmiyyətə təsir etdiyi üçün araşdırılması vacib olan məsələdir [Duman, 2018].

Evlilik və boşanma illər ərzində dəyişən sosial, iqtisadi və mədəni şərtlərə uyğun olaraq forma dəyişmişdir. Ənənəvi cəmiyyətlərdə evlilik yalnız iki fərdin deyil, eyni zamanda ailələrin, tayfaların birləşməsi kimi qəbul olunduğundan boşanma prosesi qəbuledilməz hesab edilirdi. Bir çox mədəniyyətdə boşanma ya qadağan edilir, ya da sosial qınaq kimi qarşılanırdı. Xüsusən də bu proses qadınlar üçün daha ağır hal alırdı. Sənayeləşmə və şəhərləşmə ilə birlikdə fərd anlayışı ön plana çıxmağa başladı. İnsanların iqtisadi müstəqilliyi ələ alması ilə evliliyə baxış dəyişdi. Artıq keçmişdən fərqli olaraq evlilik sadəcə sosial borc kimi deyil, eyni zamanda şəxsi xoşbəxtlik və emosional uyğunluq anlayışlarını da ehtiva edirdi. Bu dəyişiklik boşanmaya baxışın da transformasiyasına səbəb oldu. Əgər əvvəl boşanma uğursuzluq kimi qiymətləndirilirdisə, müasir dövrdə bu daha çox uyğun və ya düzgün olmayan münasibətdən çıxış yolu kimi qəbul edilir.

Müasir dövrdə hüquqi sistemlərin inkişafı, qadının təhsil və iş imkanının artması, öz ayaqları üzərində durmağı bacarması evlilik daxilində daha güclü mövqe tutmasına şərait yaratdı. Bununla belə, boşanma sosial və psixoloji cəhətdən ailə üzvləri üçün xüsusilə də, uşaqlar üçün müəyyən çətinliklər yarada bilir.

Evlilik və boşanma anlayışı illər ərzində mənasını dəyişdiyi kimi valideynlik anlayışı da fərqli hal almışdır. Ənənəvi ailələrdən fərqli olaraq müasir ailələrdə valideynlər istər maddi, istərsə də mənəvi cəhətdən bütün güclərini uşaqların yetişdirilməsinə sərf edirlər. Əvvəllər qadınlar evlilikdən sonra uşaq dünyaya gətirməni vacib və qaçınılmaz bir rol kimi anlayırdılarsa, indiki zamanda artıq bu şəxsi qərar və məsuliyyətə çevrilib. Bu dəyişikliklər cəmiyyətin dəyərlər sistemində daha geniş transformasiyanın göstəricisidir. Qısaca, evlilik artıq yalnız sosial norma deyil, fərdi seçim və qarşılıqlı razılaşma əsasında qurulan münasibət kimi qəbul olunur. Boşanma isə bu münasibətin uğursuzluğu deyil, bəzən onun təbii sonu kimi dəyərləndirilir.

Boşanma sadəcə valideynlər arasında baş verən proses kimi görünsə də belə deyildir. Burada uşaqlar da valideynlər qədər bir çox çətinlikdən keçirlər. Boşanma uşağa potensial olaraq ciddi təsir göstərə biləcək bir sıra dəyişikliklərə səbəb olur. “Potensial olaraq” ifadəsinin istifadə edilməsinin əsas səbəbi boşanmanın qaçınılmaz olaraq uşaqlara zərər verəcək bir proses kimi görülmədiyini vurğulamaqdır [Öngider, 2013].

Müasir dövrdə statistika göstərir ki, boşanma halları dünyada sürətlə artır. Azərbaycanda son 5 ildə boşanmaların sayına baxdığımızda sürətlə artdığını görürük. Məsələn, 2022-ci ildə ölkədə 15983 boşanma qeydə alındığı halda, ondan sonrakı illərdə bu rəqəm 20000-i keçmişdir [Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi, 2024]. Bu göstərici bizə problemin üstündə daha çox dayanmalı olduğumuzu və bunun qarşısını almağın ya da boşanmadan sonra yaranan psixoloji çətinlikləri həll etmək üçün işlər görülməsinin vacibliyini özündə əks etdirir.

## 2.Ədəbiyyat təhlili

Boşanmanın uşaqlara təsiri məsələsi uzun illərdir ki, müxtəlif tədqiqatçıların diqqət mərkəzində olmuşdur və bununla bağlı tədqiqatçılar fərqli yanaşmalar irəli sürmüşdür. Əsasən, bu proses uşaqlar üçün psixoloji aspektdən mənfi nəticələr doğuran bir faktor kimi dəyərləndirilmişdir. Məsələn, Judith S.Wallerstein boşanma dövründə və sonrakı illərdə uşaqlar üzərində uzunmüddətli müşahidələr apararaq bu sahədə dərin və təsirli fikirlər ortaya qoymuşdur. Onun arqumentlərindən biri budur ki, boşanmanın təsiri uşaqlıqdan yetkinliyə qədər davam edə bilər və bəzi problemlər həyatın sonrakı mərhələlərində üzə çıxa bilər. Yəni, uşaqlıq dövründə çox şiddətli görünməyən problemlər yetkinlik həyatında romantik münasibətlərdə çətinlik, uzunmüddətli bağ qurmaq qorxusu və s. kimi ortaya çıxa bilir. O, tədqiqatlarında uşaqları müşahidə edərkən onların ən çox keçirdiyi hissləri belə ümumiləşdirmişdir: özünü günahkar hiss etmə, valideynlər arasında seçim etməyə məcbur qalmaq. Bu kimi hallar uşağın emosional inkişafını zədələyir [Wallerstein və b., 2000]. Lakin sonrakı tədqiqatlar bu məsələyə daha diferensial yanaşma təqdim etmişdir. Paul R. Amato öz tədqiqatlarının nəticəsində göstərmişdir ki, boşanmanın təsiri bütün hallarda eyni deyil və bu təsir bir sıra sosial və ailədaxili faktorlarla şərtlənir. O, boşanmanın bəzi hallarda uşağın rifahı üçün daha uyğun yol olduğuna inanırdı. Çünki yüksək konfliktli ailələrdə valideynlərin birlikdə qalmasının uşaq üçün daha ağır psixi nəticələr yaratdığını düşünürdü [Amato, 2001]. M.Hetherington öz “dözümlülük” (resilience) konsepsiyasında qeyd edirdi ki, uşağın reaksiyası ailədaxili dinamikadan asılıdır. Başqa sözlə, boşanmadan sonra valideynlər münaqişəni bitirirsə və ya bu vəziyyəti düzgün şəkildə ələ alırsa, uşaq daha tez vəziyyətə adaptasiya olur. O, bu halı uşaqlar üçün “müvəqqəti böhran” dövrü kimi görürdü [Hetherington və Kelly, 2002]. A.J.Cherlin də boşanmadan sonra valideyn münaqişələrinin uşağa zərər verdiyini vurğulamış və bəzi hallarda boşanmanın uşaq üçün müsbət ola biləcəyini də qeyd etmişdir [Cherlin, 1992].

## 3.Psixoloji yanaşmaların izahı

Boşanma sadəcə hüquqi bir akt deyil, ailə üzvlərinin, xüsusilə də uşaqların psixoloji dünyasında köklü dəyişikliklərə səbəb olan bir hadisədir. Uşaqların bu prosesə verdiyi reaksiyaları anlamaq üçün bir neçə təməl psixoloji nəzəriyyə əsas götürülür. Bu nəzəriyyələrdən ən çox bilinəni J. Bowlby tərəfindən irəli sürülən bağlılıq konsepsiyasıdır. Bağlanma nəzəriyyəsi uşağın ona qayğı göstərən şəxslə qurduğu emosional bağın onun təhlükəsiz hissinin təməli olduğu fikrini müdafiə edir. Bu nəzəriyyə bağlılığın ömür boyu qurula biləcək bir proses olduğunu vurğulayır. Başqa sözlə desək, yaşanıla biləcək travmalar qurulan güclü bağlılığı dəyişə bilər [Bowlby, 1988]. Boşanma da uşaq üçün bu təhlükəsiz bazanın parçalanması riskini artırır. Valideynlərdən birinin evi tərk etməsi, yaşanılan münaqişələrin sıxlığı və ya uşağa davamlı yansıdılması ayrılıq təşvişi və tərk edilmə qorxusunu üzə çıxarır. Əgər boşanma prosesi uşağa qayğı göstərən əsas baxıcı ilə olan bağı zədələyərsə, onun yetkinlik dövründə başqalarına etibar etməkdə çətinlik və münasibətlərdə qaçınan və ya qayğılı bağlanma stillərinin formalaşmasına yol aça bilər.

A.Banduranın sosial öyrənmə nəzəriyyəsinə görə uşaqlar davranış modellərini müşahidə yolu ilə öyrənirlər [Bandura, 1977]. Boşanma dövründə valideynlərin bir-birinə qarşı nümayiş etdirdiyi davranışlar uşaq üçün “münaqişə həlli modeli” yaradır. Əgər münaqişə zamanı valideynlər aqressiya, ittiham, manipulyasiya kimi davranışlara yönəlirlərsə, uşaq da sosial problemləri bu üsullarla həll etməyi öyrənir. Əksinə, valideynlərin boşanma və ya münaqişə zamanı bir-birlərinə hörmətli, sakit münasibətləri uşağa çətinliklər qarşısında emosional təmkin nümayiş etdirməyin mümkünlüyünü aşılayır.

M.Bowen ailə sistemləri nəzəriyyəsində ailəni bir-birinə bağlı üzvlərdən ibarət emosional vahid kimi xarakterizə edir. Bu nəzəriyyəyə əsasən, ailə sistemindəki bir gərginlik digərlərinə də sirayət edir [Bowen, 1978]. Validenylərin bir çoxu öz aralarındakı

münaqişənin gərginliyini azaltmaq üçün şüursuz şəkildə uşağı tərəf tutmağa məcbur edir və ya onu qarşı tərəflə bağlı məlumat yığmaq üçün istifadə edir. Bu, uşaqda həm günahkarlıq hissinə səbəb olur və onda "sadiqlik münaqişəsi" (loyalty conflict) yaradır.

Nəticə etibarilə, psixoloji yanaşmalar göstərir ki, uşağın boşanma prosesində aldığı travmanın dərəcəsi valideynlərin bu vəziyyəti necə idarə etməsindən birbaşa asılıdır.

**4. Nəticə**

Yekunda belə bir qənaətə gəlmək olar ki, boşanma uşaqda depressiya, ayrılıq qorxusu, tərk edilmə hissi, narahatlıq, aqressiv davranışlar, psixoloji dözümsüzlük, güvənsizlik, günahkarlıq, özünəhörmətin qeyri-adekvat olması və s. kimi bir çox mənfi emosiya və davranışlara səbəb olduğundan və müasir dövrdə boşanmaların sayı artdığından bu hadisənin uşaqlara minimum təsir etməsi üçün müəyyən addımlar atılmalıdır. Bunları aşağıdakı kimi qruplaşdıra bilərik:

– Uşaqla açıq kommunikasiya: Uşağa yaşına uyğun izah edilməlidir ki, valideynlərin ayrılığının səbəbkarı o deyil və bu qərar sadəcə valideynlərə məxsusdur. Bu, uşağın özünü günahkar görməsinin qarşısını alar.

– Davamlı ünsiyyətdə olmaq: Valideynlər ayrılsa da, uşaq üçün mütəmadi görüşlər proqnozlaşdırıla bilər və bu davamlı olmalıdır ki, uşaqda tərk edilmə qorxusu azalsın.

– Sosial və emosional dəstək: Uşağın sadəcə valideynləri ilə yox, qohumları, dostları və müəllimləri ilə də əlaqələri möhkəmləndirilməlidir ki, özünü yalnız hiss etməsin və hətta lazım gəldikdə məktəb psixoloqundan peşəkar dəstək alsın.

– Münaqişəsiz mühit təmin etmək: Valideynlər bir-biri ilə bağlı mənfi danışığı uşağın yanında gerçəkləşdirməkdən birmənalı qaçınmalıdır. Uşaq münaqişəyə daxil edilməməlidir.

– Rutinlərin qorunması: Boşanma uşağın həyatında bir çox sahədə dəyişiklik yaradır. Bu səbəbdən məktəb, dərnəklər, kurslar, hətta həftəsonu vərdişləri mümkün qədər eyni qalmalıdır ki, uşaq həyatının nəzarətdə olduğu hissini yaşaya bilsin.

– Valideynə yadlaşma sindromunun qarşısını almaq: Uşaq çox vaxt boşanmadan sonra yanında qaldığı valideyn tərəfindən digər valideyni ilə bağlı xoşagəlməz fikirlər eşidir və ya qarşı tərəfə demək istədiyi bir sözü uşaq vasitəsilə göndərir və ya əksinə. Bu hallarda uşaq valideynə yadlaşma sindromu yaşayır. Bu kimi halların qarşısını almaq üçün boşanma prosesində mediator və ya başqa mütəxəssislər bu problemi nəzərə alınmalı və qarşısını almaq üçün uşağın cinsinə və yaşına uyğun tədbirlər görməlidir. Nəzərə almaq lazımdır ki, bir insan yaxşı həyat yoldaşı olmaya bilər, lakin bu, onun yaxşı valideyn də olmayacağı anlamına gəlmir.

**5.REFERENCES**

1. Azerbaijan Republic State Statistical Committee. (2024). *Demographic indicators of Azerbaijan: Marriages and divorces*. Retrieved from https://azstat.gov.az (in Azerbaijani)
2. Ministry of Justice of the Republic of Azerbaijan. (2025). *Statistical report on civil status registration acts for 2024-2025*. Baku: Azerbaijan. (in Azerbaijani)
3. Amato, P. R. (2001). Children of divorce in the 1990s: An update of the Amato and Keith (1991) meta-analysis. *Journal of Family Psychology*, *15*(3), 355–370. https://doi.org/10.1037/0893-3200.15.3.355 (in English)
4. Aydin, O. & Baran, G. (2010). Social change process in marriage and divorce. *Toplum ve Sosyal Hizmet*, *21*(2), 117-126. https://dergipark.org.tr/en/download/article-file/797242 (in Turkish)
5. Bandura, A. (1977). *Social learning theory*. New Jersey: Prentice Hall. (in English)
6. Bowen, M. (1978). *Family therapy in clinical practice*. New York: Jason Aronson. (in English)

7. Bowlby, J. (1988). *A secure base: Parent-child attachment and healthy human development*. New York: Basic Books. (in English)
8. Cherlin, A. J. (1992). *Marriage, divorce, remorse: Social trends in the United States*. Cambridge: Harvard University Press. (in English)
9. Duman, N. (2018). An evaluation on the psycho-social causes of divorce. *Uluslararası İnsan Çalışmaları Dergisi*, *1*(2), 246-255. https://dergipark.org.tr/en/download/article-file/603903 (in Turkish)
10. Hetherington, E. M. & Kelly, J. (2002). *For better or for worse: Divorce reconsidered*. New York: W. W. Norton & Company. (in English)
11. Ongider, N. (2013). Effects of divorce on children. *Psikiyatride Güncel Yaklaşımlar*, *5*(2), 140-161. (in Turkish)
12. Wallerstein, J. S., Lewis, J. M. & Blakeslee, S. (2000). *The unexpected legacy of divorce: A 25-year landmark study*. New York: Hyperion. (in English)

## ƏDƏBİYYAT

1. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi. (2024). *Azərbaycanın demoqrafik göstəriciləri: Nikah və boşanmalar*. Retrieved from https://azstat.gov.az
2. Azərbaycan Respublikası Ədliyyə Nazirliyi. (2025). *Vətəndaşlıq vəziyyəti aktlarının qeydiyyatı üzrə 2024-2025-ci illərin statistik hesabatı*. Bakı: Azərbaycan.
3. Amato, P. R. (2001). Children of divorce in the 1990s: An update of the Amato and Keith (1991) meta-analysis. *Journal of Family Psychology*, *15*(3), 355–370. https://doi.org/10.1037/0893-3200.15.3.355
4. Aydın, O. & Baran, G. (2010). Toplumsal değişme sürecinde evlenme ve boşanma. *Toplum ve Sosyal Hizmet*, *21*(2), 117-126. https://dergipark.org.tr/en/download/article-file/797242
5. Bandura, A. (1977). *Social learning theory*. New Jersey: Prentice Hall.
6. Bowen, M. (1978). *Family therapy in clinical practice*. New York: Jason Aronson.
7. Bowlby, J. (1988). *A secure base: Parent-child attachment and healthy human development*. New York: Basic Books.
8. Cherlin, A. J. (1992). *Marriage, divorce, remorse: Social trends in the United States*. Cambridge: Harvard University Press.
9. Duman, N. (2018). Boşanmanın psiko-sosyal sebepleri üzerine bir değerlendirme. *Uluslararası İnsan Çalışmaları Dergisi*, *1*(2), 246-255. https://dergipark.org.tr/en/download/article-file/603903
10. Hetherington, E. M. & Kelly, J. (2002). *For better or for worse: Divorce reconsidered*. New York: W. W. Norton & Company.
11. Öngider, N. (2013). Boşanmanın çocuk üzerindeki bağlantıları. *Psikiyatride Güncel Yaklaşımlar*, *5*(2), 140-161.
12. Wallerstein, J. S., Lewis, J. M. & Blakeslee, S. (2000). *The unexpected legacy of divorce: A 25-year landmark study*. New York: Hyperion.